| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Qanunlar |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.12.2018 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 1404-VQD |
| **ADI** | “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “İcra haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Azərbaycan Qəzeti (Dərc olunma tarixi: 01-02-2019, Nəşr nömrəsi: 25), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-01-2019, Nəşr nömrəsi: 01, Maddə nömrəsi: 21) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 01.02.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 110.040.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 12201812281404 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 30.01.2019 |

**“Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “İcra haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq, “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikasının 2018-ci il 18 may tarixli 1143-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 7, maddə 642; 2018, 6, maddə 1178) aşağıdakı məzmunda 2.5-ci maddə əlavə edilsin:

“2.5. Ələt azad iqtisadi zonasında əqli mülkiyyət hüquqlarının təminatı sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 2.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 1, maddə 8; 2005, 1, maddə 1, 8, maddə 700; 2006, 2, maddə 70; 2008, 2, maddə 49; 2010, 4, maddə 265; 2012, 1, maddə 2, 7, maddə 651; 2013, 12, maddə 1479; 2014, 2, maddə 78, 7, maddə 769, 11, maddə 1356, 12, maddə 1526; 2015, 11, maddə 1259; 2016, 4, maddə 644, 10, maddə 1606; 2017, 5, maddələr 709, 724, 10, maddə 1775; Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanunu) 3-cü maddəsinin mətni 3.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 3.2-ci maddə əlavə edilsin:

“3.2. Ələt azad iqtisadi zonasında hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri sahəsində münasibətlər “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 3.** “İcra haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 3, maddə 114; 2003, 6, maddə 277; 2004, 8, maddə 598, 11, maddə 901, 12, maddə 973; 2007, 1, maddə 3, 6, maddə 562, 11, maddə 1053; 2008, 6, maddə 462, 7, maddə 602; 2009, 12, maddə 952; 2010, 2, maddə 75, 7, maddə 591; 2011, 6, maddə 482, 7, maddə 618; 2012, 11, maddə 1052; 2013, 6, maddə 613, 7, maddə 787, 12, maddə 1494; 2015, 12, maddə 1434; 2016, 12, maddə 2050; 2017, 2, maddə 156; 2017, 6, maddə 1056, 8, maddə 1511; 2018, 2, maddə 151, 5, maddələr 853, 867, 7, I kitab, maddə 1424) aşağıdakı məzmunda 1.3-cü maddə əlavə edilsin:

“1.3. Ələt azad iqtisadi zonasında məhkəmə və digər orqanların qərarlarının icrası “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**Maddə 4.** “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 12, maddə 1084; 2006, 12, maddə 1031; 2008, 6, maddə 462; 2011, 7, maddə 592; 2014, 12, maddə 1516; 2016, 4, maddə 643) aşağıdakı məzmunda 3.2-1-ci maddə əlavə edilsin:

“3.2-1. Ələt azad iqtisadi zonasında inzibati icraatın həyata keçirilməsi “Ələt azad iqtisadi zonası haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 28 dekabr 2018-ci il
1404-VQD